# Təşkilatçı, tədqiqatçı müəllim



Onun haqqında söz düşəndə belə deyirlər: "Naidə Məmmədova dövlətə və dövlətçiliyə bağlı müəllim, gözəl təşkilatçı və tədqiqatçıdır". Ömür yolunu müəllimliklə kəsişdirən pedaqoq istər şagirdləri, istərsə də müəllim həmkarları, onu tanıyan hər bir kəs tərəfindən sevilir və adıçəkilən zaman hörmətlə danışılır.

### Müəllim olmaq arzusu...

Masallı rayonunda ziyalı ailəsində 1962-ci ildə anadan olan Naidə Şakir qızı Məmmədova ilk təhsilini Şərəfə kənd tam orta məktəbində alıb. Orta təhsilini müvəffəqiyyətlə bitirərək illərlə xəyalını qurduğu müəllim olmaq arzusunu reallaşdırmaq üçün 1980-ci ildə Azərbaycan Dillər Universitetinin fransız-ingilis dili fakültəsinə qəbul olunur.

Orta məktəb illərində olduğu kimi, ali təhsil aldığı dövrdə də təhsili və ictimai fəaliyyəti ilə fərqlənərək fakültə Həmkarlar Təşkilatının sədri, universitet üzrə mədəni kütləvi işlər komissiyasının sədri, eyni zamanda Tələbə Elmi Cəmiyyətinin fəal üzvü olur. Elmi və ictimai fəaliyyətinə görə universitet rəhbərliyi tərəfindən medal və diplomlara layiq görülür.

### Pedaqoji fəaliyyəti

1985-ci ildə Naidə Məmmədova universiteti müvəffəqiyyətlə bitirdikdən sonra ali təhsil müəssisəsində qalıb işləmək təklifi alsa da, elə həmin il təyinatını öz doğma rayonuna alaraq bir vaxtlar məzunu olduğu Şərəfə kənd tam orta məktəbində fransız-ingilis dili müəllimi kimi fəaliyyətə başlayır.

İşə başladığı ilk illərdə doğma məktəbində müasir linqafon kabineti yaratmaq üçün Masallı Rayon Təhsil Şöbəsinə müraciət edərək ona dəstək olmalarını xahiş edir. Çünki bilirdi ki, məhz şagirdlərin xarici dil bacarıqlarının yüksək səviyyədə olması üçün ən müasir avadanlıqlarla təchiz olunmuş linqafon kabineti mütləqdir. Və o tez bir zamanda bu istəyinə nail olur.

Yüksək bilik və bacarığa malik olan pedaqoqun dərs dediyi şagirdləri də artıq göstərdikləri nəticələrlə rayon təhsilinə başucalığı gətirməyə başlayır. Məhz Naidə müəllimin şagirdləri 3 il ardıcıl olaraq respublikada beynəlxalq təşkilatlar tərəfindən keçirilən xarici dil inşa müsabiqəsində I yerə layiq görüldüyü üçün Fransanın ölkəmizdəki səfirliyi onun pedaqoji fəaliyyətini yüksək qiymətləndirərək işlədiyi Şərəfə kənd tam orta məktəbi pilot ümumi təhsil müəssisəsi seçilir və o, xarici mütəxəssislərin təşkil etdiyi təkmilləşdirmə kurslarına cəlb olunur.

Dərslərini fəal-interaktiv təlim metodlarından istifadə edərək quran təcrübəli pedaqoq müəllimlik fəaliyyəti boyu bir sıra uğurlu işlərə imza atır.

### Yaradıcı müəllim

Naidə müəllim işlədiyi doğma məktəbində, eləcə də Lənkəran Dövlət Universitetində və Heydər Əliyev Mərkəzində bir sıra tədbirlər həyata keçirib. Lənkəran Dövlət Dram Teatrında tələbələr ilə birgə G.Mopassanın "La parure" novellasını, eləcə də xarici dildə bir sıra tamaşalar hazırlayıb ictimaiyyətə təqdim edib.

Təcrübəli pedaqoq 1998-ci ildə Masallı Rayon Təhsil Şöbəsinə müraciət edərək Şərəfə kənd tam orta məktəbində fransız və rus dili qruplarından əlavə, ilk dəfə olaraq ingilis dili qrupunun da açılmasına müvəffəq olub. 1999-2010-cu illərdə Lənkəran Dövlət Universitetinin xarici dillər kafedrasında Fransanın Marc Block-2 Universiteti ilə müştərək fransız dili və sivilizasiyasından, latın dilindən dərs deyib. Naidə Məmmədova pedaqoji fəaliyyətini, xarici dil bacarıqlarını inkişaf etdirmək, daha da təkmilləşdirmək məqsədilə 2003-cü ildə Təhsil Nazirliyi və Fransanın ölkəmizdəki səfirliyinin dəstəyi ilə Paris, Bezanson şəhərlərinin müxtəlif universitetlərində təkmilləşdirmə kurslarında olub.

2010-cu ildə N.Məmmədovanın iş təcrübəsi haqqında RTŞ-də bülleten buraxılıb, dəfələrlə onun səmərəli fəaliyyəti yerli təhsil orqanlarının müvafiq sənədlərində yüksək qiymətləndirilib.

Naidə Məmmədova yaradıcı və öz üzərində işləyən, daim axtarışda olan bir təhsil işçisidir. Onun 2001-ci ildə Təhsil Nazirliyinin təşkil etdiyi "Qəlbimi uşaqlara verirəm" - respublika müsabiqəsinin " Dövlətçiliyə sədaqət və vətənpərvərlik hissinin aşılanması" nominasiyası üzrə təqdim etdiyi "Bir daha ordu məsələlərinə dair - Biz torpaqlarımıza qayıdacağıq" adlı məruzəsi mükafata layiq görülüb. "Ən yaxşı müəllim" müsabiqəsinin qaliblərindən biri olan N.Məmmədovanın iş təcrübəsi rayon üzrə öyrənilərək yayılıb.

Naidə müəllim öz bilik və bacarığını gənc müəllimlərdən əsirgəməyən pedaqoqlardandır, peşəkar təlimçi kimi respublikamızın əksər bölgələrində müəllimlərin təkmilləşdirilməsi məsələləri ilə məşğul olub.

O, 2021-ci ildə ADU, APFAZ və Fransanın ölkəmizdəki səfirliyinin keçirdiyi "Ən yaxşı xarici dil müəllimi" nominasiyasının, 2 şagirdi isə "Ən yaxşı şagird" nominasiyasının qalibi seçilib. Yaradıcı müəllim 2022-ci ildə Elm və Təhsil Nazirliyinin həyata keçirdiyi Təhsildə inkişaf və innovasiyalar üzrə VI qrant müsabiqəsinin qalibi olub.

### Həm ictimaiyyətçi, həm də tədqiqatçı

Təcrübəli pedaqoq 1998-ci ildə Azərbaycan müəllimlərinin XI qurultayının nümayəndəsi olub. 2018-ci ildə Türkiyənin Antalya şəhərində Uluslararası Türk dünyasının keçirdiyi Sosial və Egitim Bilimləri Beynəlxalq Konqresində iştirak edən Naidə Məmmədova "Dədə Qorqud" mükafatına layiq görülüb.

Müəllimlik fəaliyyəti ilə yanaşı, tədqiqatçılıqla da məşğul olan peşəkar təhsil işçisi Masallı Rayon Təhsil Şöbəsinin Qəza dövründən əvvəlki tarixini araşdırıb, eyni zamanda boya-başa çatdığı Şərəfə kəndinin yaranmasının V əsri, eləcə də kənd tam orta məktəbinin yaranmasının 80 illik yubileyi münasibətilə qardaşı Samir Məmmədovla birgə kəndin tarixi, maarifi, səhiyyəsi ilə bağlı kitab yazıb. Bundan başqa, həmkarı Həmdulla Məmmədov ilə birgə hazırladığı xarici dildə məktəblilər üçün stolüstü lüğət kitabı çap olunub.

Naidə Məmmədova elmi yaradıcılıqla da məşğuldur. Araşdırmaçı müəllim mütəmadi olaraq beynəlxalq və respublika elmi konfranslarında, iclaslarda çıxışlar edir, təşkilat komitəsinin tərkibində olur. Onun "Ədəbi mətnlərin analizi müasir paradiqmlər kontekstində", "İlk şərqşünas alim Aida xanım İmanquliyeva və qərbə inteqrasiya", "Ümmülbanu və yaradıcılığındakı ziddiyyətli məqamlar", "Yeni təlim strategiyaları", "Xarici dilin mahnılarla tədrisi mexanizmi", "Multikulturalizm-alternativi olmayan mədəni siyasət kimi" və s. mövzularında apardığı elmi araşdırmaları, "Biz torpaqlarımıza qayıdacağıq" başlığı altında yazdığı tədqiqat xarakterli, tarixi faktlara söykənən məqalələri diplom və təşəkkürnamələrə layiq görülüb.

### Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında fəallıq göstərib

N.Məmmədova vətənpərvər bir ziyalıdır. 44 günlük Vətən müharibəsində fransız və ingilis dillərində Avropa Parlamentinin deputatlarına Azərbaycan həqiqətlərini çatdırmaq üçün icra strukturları ilə birgə çox sayda məktublar ünvanlamış, videoçarxlar hazırlayaraq öz övladlarını Azərbaycan torpaqlarından çıxartmaları, cəbhə bölgəsindən uzaqda yerləşən şəhərlərimizin dağıdılması və nəticədə günahsız körpələrin, yaşlı insanların öldürülməsinə son qoyulması üçün erməni analarına və xalqına müraciətlər etmişdir. O, Böyük Vətən müharibəsi, I və II Qarabağ müharibələrində iştirak edən, şəhid və qazi olan oğullarımızın, cəsur kəşfiyyatçılarımızın göstərdikləri igidlik və şücaətləri haqqında məqalələrlə çıxış etmişdir.

### Müəllim kimi həyatındakı sevinc payı...

Hər bir uğurlu müəllimin fəaliyyətinin sevinc payı təbii ki, ilk növbədə, onun yetirmələrinin xoş sorağını eşitmək, uğurlu karyeraları ilə cəmiyyətdə özlərini təsdiqləmələridir. Elə Naidə müəllimin də ömür payında belə sayılıb-seçilən gənclərin öz yeri var. Bəlkə də müəllim sevgisinin hərarətindən, doğmalığındandır ki, vaxtilə şagirdi olmuş bir sıra yetirmələri artıq uzun illərdir ki, onunla Şərəfə kənd tam orta məktəbində həmkar - özü də məhz fransız-ingilis dili müəllimi kimi bir yerdə, çiyin-çiyinə çalışırlar.

### Əməyinə verilən qiymət

İnsanın əməyinə verilən qiymət onu daha da ruhlandırır, neçə-neçə uğurun əldə olunmasına bir vəsilə olur. Naidə müəllimin istər pedaqoji, yaradıcı, istərsə də yüksək təşkilatçılıq bacarığı da diqqətdən kənarda qalmayıb. Təcrübəli müəllim 2019-cu ildə Təhsil Nazirliyi tərəfindən "Azərbaycan Respublikası qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif olunub.

Öz dövlətini, xalqını sevən təhsil işçisi Yeni Azərbaycan Partiyasının üzvüdür.

Naidə Məmmədova müəllimliyi ilə fəxr edir. Peşəkar, uzunillik təcrübəyə malik pedaqoq ölkə təhsilinin inkişafında xidmətlərinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 4 oktyabr 2022-ci il tarixli Sərəncamına əsasən "Əməkdar müəllim" fəxri adına layiq görülüb. Ölkə başçısı tərəfindən ali mükafata layiq görülən təhsil işçisi bu gün bu adı şərəflə daşımaqdan qürur duyur.

**Samirə KƏRİMOVA**